


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

15 fevral 2024-cü il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 6 (3670)


## Ümumxalq etimadının zəfəri

### Azərbaycan Prezidenti İlham Əliyevin andiçmə mərasimi keçirilib

**Növbədənkənar Prezident seçkilərində mütəşəkkil şəkildə iştirak edən xalq növbəti dövrdə müstəqil dövlətini idarə edəcək rəhbərinə öz etimadını göstərdi.**



Azərbaycan xalqı birmənalı şəkildə yenidən Prezident İlham Əliyevə səs verdi. Fevralın 14-də Prezident İlham Əliyevin Milli Məclisdə andiçmə mərasiminin keçirilməsi ilə Azərbaycanın həyatında yeni bir dövr başladı.

Mərasim iştirakçıları Prezident İlham Əliyevi hərarətlə qarşılayıblar.

Ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi açıq elan olunub.

Silahlı Qüvvələrin əsgərləri Azərbaycan Respublikasının Dövlət Bayrağını və Azərbaycan Respublikası Prezidentinin ştandartını (bayrağını) təntənəli marşın sədaları altında səhnəyə gətiriblər.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və Konstitusiya Məhkəməsinin hakimləri səhnəyə dəvət olunublar.

Fərhad Abdullayev bildirib ki, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 2024-cü il 13 fevral tarixli qərarı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Mərkəzi Seçki Komissiyasının nəticələrini təsdiq edərək, cənab İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti elan edib.

Azərbaycan Prezidenti seçilmiş cənab İlham Əliyev Konstitusiyanın 103-cü maddəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə andiçməyə dəvət olunub. Prezident İlham Əliyev əlini Konstitusiyanın üzərinə qoyaraq and içib:

**"Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!"**

Sonra Prezident müqəddəs "Qurani-Şərif"ə əl basaraq and içib: **"Əlimi "Qurani-Şərif"ə basaraq and içirəm: Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli mənəvi dəyərlərə və ənənələrə sadiq olacağam, onları daim uca tutacağam".** Sonra Dövlət Himni səslənib. Prezident İlham Əliyev təzim edərək, Dövlət Bayrağını öpüb, andiçmə mərasimində nitq söyləyib.

## Andiçmədən sonra ehtiram

### Prezident Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib

Fevralın 14-də andiçmə mərasimindən sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gəlib ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edərək xatirəsini ehtiramla yad ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xalqımızın müqəddəs and yeri olan Şəhidlər xiyabanını da ziyarət ediblər.

## Prezidentdən sərəncam

### Yeni tərkib formalaşdırılanadək...

Fevralın 14-də Prezident İlham Əliyev Nazirlər Kabineti üzvlərinin səlahiyyətlərinin icra edilməsi haqqında Sərəncam imzalayıb.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin yeni tərkibi formalaşdırılanadək Azərbaycan Respublikası Nazirlər Kabineti üzvlərinin səlahiyyətlərinin icra olunmasını Nazirlər Kabinetinin əvvəlki tərkibinə həvalə edib.

## Hərbi gücümüz artır

### Silahlı Qüvvələrimizin arsenalı zənginləşdirilir

Fevralın 9-da Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və oğlu Heydər Əliyev Hərbi Hava Qüvvələrinin hərbi obyektlərində olub və silahlanmaya yeni qəbul edilən "Akıncı" hücum PUA-larının uçuşunu izləyiblər.

Prezident İlham Əliyev PUA Akademiyasında yaradılan şəraitlə tanış olub. Sonra "Akıncı" hücum PUA-sının havaya qalxmasını izləyib.

## Düşünülmüş enerji strategiyası

### "Əsrin müqaviləsi"nin yeni mərhələsi başlayır

**Azərbaycan iqtisadiyyatı şaxələnərək inkişaf edir. Neft-qaz sənayesi ilə yanaşı, digər sahələrdə də ildən-ilə daha çox irəliləyiş əldə olunur. Bununla belə, karbohidrogenlərin hasilatı və ixracı ölkə iqtisadiyyatının əsas hissəsi olaraq qalır.**

Müəllifi ümummilli lider olan "Əsrin müqaviləsi" - "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqları üzrə Hasilatın Pay Bölgüsü Sazişi ölkəmizin yüksəlişinə təkan verib. 2017-ci ilin sentyabrında sazişə dəyişiklik edilərək yenidən işlənməsi və müddətinin 2050-ci ilin əvvəlinədək uzadılması isə "Yeni əsrin müqaviləsi" adını aldı. Bu dəyərli layihə Prezident İlham Əliyevin enerji strategiyasının mühüm bir hissəsinə çevrildi. Belə ki, yenidən işlənmiş saziş AÇG-nin Azərbaycan və səhmdarlar üçün iqtisadi faydasının maksimuma çatdırılmasını nəzərdə tutur.

"Azəri-Çıraq-Günəşli" Azərbaycanın nəhəng neft yataqları blokudur. Onun uğurla işlənməsi isə yalnız mükəmməl iqtisadi idarəetmə, zəngin bilik və təcrübə, etibarlı tərəfdaşlıq sayəsində mümkün olub.

#### Gəlirlər xalqın rifahına yönəldilir

Son illər Azərbaycan dövləti möhkəm beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platforması yaradıb. Bu da müxtəlif təyinatlı yeni, daha qlobal layihələrin həyata keçirilməsinə imkan verir. Təbiətin xalqımıza bəxş etdiyi təbii sərvətlərdən böyük səriştə və uzaqgörənliklə istifadə olunur və onların istismarından əldə edilən gəlirlər ölkənin inkişafına, xalqın rifahına yönəldilir. Azərbaycan xalqı qazanılan nailiyyətlərlə fəxr edir və onları daha da artırmağa çalışır. Bir neçə gün əvvəl keçirilən prezident seçkilərində bunu bütün dünya gördü. Xalq hər sahədə onu irəliyə aparan, o cümlədən neft kapitalını insan kapitalına çevirən liderinə səs verdi. 2023-cü ilin üçüncü rübünün sonunadək AÇG yataqlar blokunun işlənməsinə ümumilikdə 43 milyard dollardan artıq sərmayə qoyulub. Blokun işlənməsi mərhələlərlə həyata keçirilib. Hazırda ən son mərhələ olan "Azəri Mərkəzi Şərqi" (ACE) layihəsi çərçivəsində hasilatın yolunu gözləyirik.



Zəfər seçkisinin sevincini yaşadığımız bir dövrdə bu bizə əsl müjdə olacaq. Beləliklə, bu il "Azəri Mərkəzi Şərqi" layihəsi çərçivəsində ilk hasilatın əldə olunması nəzərdə tutulub. Ötən ilin dekabrında layihə üzrə eyniadlı platformadan ilk hasilat quyusunun qazılmasına başlanıb. 2019-cu ildə yeni layihə üzrə tikinti işlərinə start verilib. Bununla da AÇG-nin işlənilməsində yeni dövr başlanıb.

#### Azərbaycana çatacaq mənfəət

ACE sazişinin bir hissəsi olaraq SOCAR-ın AÇG-dəki iştirak payı 11,65 faizdən 25 faizə qaldırılıb. Beynəlxalq tərəfdaş şirkətlər layihənin icrası dövründə Azərbaycan Respublikası Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödəyəcəklər. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi isə 75 faiz təşkil edəcək. Bir vacib məqam da odur ki, tərəfdaşların tərkibində dəyişiklik olmayıb. O cümlədən bp şirkəti layihənin operatoru olaraq qalıb. Bu da Prezident İlham Əliyevin yaratdığı beynəlxalq tərəfdaşlıq platformasının daha bir aydın təzahürüdür.


Həyat əhəmiyyətli xidmət 2

Onlayn bazarda nələr olur... 2

Mübariz oğulların cərgəsində 3

Qurumlararası yarış 4

## RESPUBLİKA XƏBƏRLƏRİ

### Ordumuz cavab tədbiri görüb

Azərbaycanın Ermənistan tərəfinin təxribatına qarşı gördüyü tədbirlərin eskalasiya üçün bəhanə olması ilə bağlı Ermənistan Xarici İşlər Nazirliyinin iddiaları tamamilə əsassızdır. Bu fikir son hərbi təxribatlarla bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin şərhində yer alıb. Şərhdə qeyd edilib ki, Azərbaycanın hərbi qulluqçusunun yaralanması ilə nəticələnən hərbi təxribatdan sonra sırf cavab tədbiri görülüb.

### Ölkəmiz razılaşmalara sadiqdir

Azərbaycan keçən il həyata keçirdiyi antiterror əməliyyatından sonra 173 nəfərin meyitini taparaq Ermənistana təhvil verib. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından bu barədə bildirilib ki, 44 günlük müharibədən sonra 1713 nəfərin, 12-14 sentyabr 2022-ci ildə Ermənistan-Azərbaycan şərti sərhədində baş vermiş hərbi münaqişədən sonra 157 nəfərin meyiti təhvil verilib.

### Kəlbəcərdə təxribat

Fevralın 14-ü saat 12:25-də Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zərkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Ordumuzun Kəlbəcər rayonunun İstibulaq yaşayış məntəqəsi istiqamətindəki mövqeləri üzərində kvadrokopterlə kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərib. Bölmələrimizin sayıqlığı nəticəsində təxribatın qarşısı alınıb.

### Qaz ixracında artım var

Bu ilin yanvar ayında Azərbaycanın təbii qaz ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə təxminən 4,5 faiz artıb. Bunu energetika naziri Pərviz Şahbazov "X" sosial şəbəkəsindəki hesabında bildirib. Məlumata görə, bunun 1,1 milyard kubmetri Avropaya, 0,8 milyard kubmetri Türkiyəyə, 0,4 milyard kubmetri isə Gürcüstana ixrac olunub.

### İqtisadiyyatda böyümə

Cari ilin yanvar ayında ölkədə 9131,0 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5 faiz çox ümumi daxili məhsul istehsal olunub. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,6 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 12,3 faiz artıb. Əhalinin hər nəfərinə düşən ÜDM 896,7 manata bərabər olub.

### Orta aylıq maaş artıb

Bakıda çalışan muzdlu işçilərin orta aylıq maaşı açıqlanıb. Dövlət Statistika Komitəsindən bildirilib ki, 2023-cü ilin yanvar-noyabr aylarında muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqısı 2022-ci ilin müvafiq dövrünə nisbətən 9,5 faiz artıb. Rəsmi məlumata görə, paytaxtda çalışanların orta aylıq əməkhaqqısı 1 169,3 manat təşkil edib.

### Polis velosipedçilərə müraciət edib

Ötən il ərzində paytaxt ərazisində velosipedçilərin vurulması ilə nəticələnən 4 yol-nəqliyyat hadisəsi qeydə alınıb və qəzalar zamanı 3 nəfər həyatını itirib, 1 nəfər isə yaralanıb. Bakı şəhər DYPİ-dən bununla bağlı velosipedçilərə müraciət edilərək bildirilib ki, onlar da yol nişanları və ya yol nişanlanmasının tələblərinə riayət etməlidirlər.

### Ərazilər minalardan təmizlənir

Azad edilmiş ərazilərdə minadan təmizlənmə ilə bağlı həftəlik məlumat açıqlanıb. Minatəmizləmə Agentliyindən bildirilib ki, fevralın 5-dən 11-dək Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda piyada əleyhinə 162, tank əleyhinə 33 mina və 836 partlamamış hərbi sursat aşkarlanıb.

### Orta Dəhlizin Bakı Limanı

Bakı Limanından keçməklə Asiyadan İsveçrəyə daşınan yüklərin həcmi 4 dəfə artıb. Belə ki, ötən ildə Bakı Limanından keçməklə Asiyadan İsveçrəyə 551 740 tondan çox yük daşınıb ki, bu da 2022-ci illə müqayisədə 3,8 dəfə çoxdur. Bu, Orta Dəhliz boyunca Bakı Limanının strateji rolunun artması kimi qiymətləndirilir.

### İstehlakçıların hüquqları qorunur

Keçən il istehlakçıların 2861 müraciəti təmin olunub. Bu barədə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin məlumatında deyilir. Təmin olunan müraciətlər üzrə 618 min 304 min manat vəsait sahibkarlar tərəfindən istehlakçılara geri qaytarılıb.

# Həyat əhəmiyyətli xidmət

## Su mənbələri DİN BMİ-nin Həyat Əhəmiyyətli Obyektlərin Mühafizəsi üzrə Polis Alayına əmanətdir






Polisin istənilən xidmət sahəsi ilk olaraq insan həyatının qorunmasına yönəlir, əlbəttə. Dövlətin bütöv bir strukturu gecə-gündüz ona çalışır ki, ilk növbədə insanların həyatına, sağlamlığına cinayətkar qəsd edilməsin. Buna cəhd edənin isə əməlinin ağırlıq dərəcəsinə görə qanun qarşısında cavabdehliyi təmin edilsin və cəzanın labüdlüyü başqalarına da ibrət olsun.

### Mənbədən mənzilədək mühafizə

Bu mənada Həyat Əhəmiyyətli Obyektlərin Mühafizəsi üzrə Polis Alayının xidməti ümumi missiyadan heç də ayrı deyil. Alayın əməkdaşları yeri gələndə ictimai qayda və təhlükəsizlik əleyhinə yönələn əməllərə adekvat reaksiya verməklə, polisin ümumi funksional vəzifələrini layiqincə yerinə yetirirlər. Hər hesabat ilinin təhlilləri bunu təsdiq edir. Məsələn, keçən il 10 yanğın hadisəsinin və 3 digər cinayətin qarşısının vaxtında alınması, ictimai qaydanı pozan 121 nəfər saxlanılaraq ərazi üzrə polis orqanlarına təhvil verilməsi məhz onların sayəsində mümkün olub. Və yaxud fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində Alayın əməkdaşları seçki-dairə məntəqələrinə təhlükəsizliyin təmin edilməsinə təhkim olunmaqla, dövlətin siyasi həyatının bu mərhələsinə də töhfələrini veriblər.

İçməli su mənbələrinin - anbarların, kəmərlərin, artezian quyularının qorunması isə Alayın xidmətini bir qədər xüsusiləşdirir, ona müstəsnalıq qatır və polisin mühafizə etmək, qorumaq missiyasının həyati əhəmiyyətlilik dərəcəsini artırır. Bu yerlərdə baş verə biləcək ciddi bir təxribatın zərərini dilə gətirmək nədir, hətta, təsəvvür etmək belə ağırdır. Buna görə Alayın şəxsi heyətinin çiyinlərində də bir o qədər ağır məsuliyyət yükü var. Çünki böyük şəhərlərin, minlərlə sakinin sağlamlığı su mənbələrinin, quyuların kənarında qurulmuş polis postlarındakı əməkdaşların ayıq-sayıqlığına, xidmətin nümunəvi təşkilinə bağlıdır. Şübhəsiz ki, indiyədək bu sahədə hər hansı neqativ hadisənin yaşanmaması çox böyük bir ərazidə mühafizəni təşkil edən Alay əməkdaşlarının qüsursuz xidmətləri ilə işlərinin öhdəsindən gəldiklərini göstərir.

Məlumat üçün bildirək ki, Alay tərəfindən 143 post mühafizə olunur. Onlara Bakı Şollar-1, Bakı Şollar 2, Oğuz-Qəbələ rayonlarında yerləşən artezian quyuları, Şabran rayonundakı Taxta-körpü su anbarı və su kəmərləri, Hacıqabul Bakı Su Kəmərləri, habelə paytaxtda yerləşən 26 içməli su anbarı və nasosxanalar daxildir. Sadalanan obyektlər ümumilikdə 1672 hektar ərazidə yerləşir, kəmərlər isə 636 kilometr uzunluğundadır. Rəqəmlər belə "deyir" ki, Alay içməli suyun mənbəyindən mənzillərimizədək mühafizəsini təşkil edir.

### Qarabağın da su mənbələri qorunur

Azərbaycanın yerli su ehtiyatlarının təxminən 20 faizi Qarabağın payına düşür. Antiterror tədbirlərindən sonra ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunması ilə ölkəmizdə suya olan tələbatın ödənilməsinə bu ehtiyatların müsbət rol oynayacağı məlum idi. Artıq bu ildən Qarabağdakı su ehtiyatları da Alay tərəfindən mühafizə edilməyə başlayıb.

Alayın komandiri polis polkovniki Sahib Vəliyev qəzetimizə bildirib ki, cari ilin ilk ayında Xankəndidə 8, Şuşada 2, Zaraslı və Daşaltı qəsəbəsinin hər birində 1 post mühafizəyə götürülüb. Bu, sürətlə həyata keçirilən Böyük Qayıdış proqramında polisin aparıcı qüvvələrdən biri olduğunu göstərən növbəti faktdır. İlk olaraq, həm də ona görə ki, polisin xidmətinin əsasında, bayaq qeyd etdiyimiz kimi, həyati mahiyyət dayanır.

Qarabağa qovuşmağın əsasında ümmilli lider Heydər Əliyevin ideyaları dayanır və bunu bilməyən, etiraf etməyən yoxdur. Torpaqlarımız üzərində tam suverenliyin ötən il, yəni "Heydər Əliyev İli"ndə bərqərar olması sanki tarixi ədalətin təzahürü idi. Daxili işlər orqanlarını əhatə edən, eləcə də Alayda ulu öndərin xatirəsinə həsr edilən təntənəli anım tədbirləri, bilik və idman yarışları, qanvermə və ağacəkmə aksiyaları əməkdaşların ömrünü xalqına bağışlamış ulu öndər ideyalarına, anda və dövlətçiliyə sədaqətinin ifadəsidir.

*Rəşad Mehtiyev*
*polis baş serjantı*

# Onlayn bazarda nələr olur...

## Kiberdələduzlarla bağlı xəbərdarlıqlar ciddiyə alınırmı?

**Elektron ticarətin daha asan və praktik yönümlü olması bir reallıqdır. Həyatımıza 90-cı illərin ortalarından daxil olan, qısaca adı "e-ticarət" kimi qeyd edilən elektron ticarət anlayışı ənənəvi ödəniş, alış-veriş, bazarlıq anlayışları ilə, demək olar ki, eyniləşib.**

Yəni proses artıq o qədər də innovativ sayılmır.

Onlayn alış-verişin iqtisadi səmərəlilik üçün yeni imkanlar yaratdığını deyən ekspertlər dünya üzrə pərakəndə elektron satışların növbəti ildə 8 trilyon dolları ötəcəyini proqnozlaşdırırlar. Ölkəmizdə də elektron ticarətin dövriyyəsi son illərdə xeyli böyüyüb. Bir il öncə Azərbaycanda elektron ticarət dövriyyəsi 20 milyard manat civarındaydı.

Gəl ki, "e-ticarət"də, xüsusən onlayn alqı-satqı prosesində ciddi təhlükəsizlik qayğıları var.

Risk daha ağırlıqlı olaraq internet üzərində ödənişlərin kibercinayətkarlığa açıq sahə olmasından qaynaqlanır. Bu bazarın qlobal miqyası, nəhəngliyi onu kiberhücumların böyük hədəfinə çevirib. İndi ucqar kənddəki alıcı belə qloballaşmanın təsiri ilə coğrafi sərhədləri bir kliklə ilə aşa bilir. Ancaq alıcı ilə satıcı arasında mübadiləni təmin edən bu onlayn prosedurda kiberdələduzların toruna düşmə ehtimalı olduqca yüksəkdir. Çünki kibercinayətkarlar, xüsusən, kiberdələduzlar dəyəri milyard dollarla ölçülən bazardan öz "paylarını" qoparmaq üçün yeni metodlar, yeni qurbanlar axtarıb tapırlar. Onların əsas ticarət "partnyoru" isə məlumatsız, diqqətsiz və risklərlə bağlı edilən xəbərdarlıqlara laqeyd olan alıcıdır. Fevralın 2-də "Dövlət Qurumlarının İT rəhbərlərinin III Zirvə toplantısı"nda da vətəndaşların informasiya təhlükəsizliyi ilə bağlı məlumatlılıq səviyyəsinin narahatlıq doğuracaq dərəcədə aşağı olduğu ifadə edilib.

Uzun sözün qısası, müxtəlif mal və xidmətlərə görə internet üzərindən ödəniş edərkən aldadılmış, bank kartları oğurlanmış alıcı sonunda zərərçəkmiş kimi polis idarəsinin yolunu tutmalı olur.

Rəqəmsal ticarətdə alıcının alnına saxta əskinas dürtüşdürən, köhnəni təzə adı ilə sırıyan satıcı ilə qarşılaşmaq kimi ənənəvi bazar fırıldaqları yoxdur, əlbəttə. Əvəzində isə onun onlayn pulqabısını boşaltmağı gözləyən saxta kontentlər, feyk saytlar, formal mağazalar və daha nələr, nələr gözləyir. İnternetdə bu cür fırıldaqçılıq, dələduzluq hallarına rast gəlinməsi, hardasa sistemin doğurduğu obyektiv səbəblər sırasında sayılmalıdır. Üstəlik, burada cəmiyyət əvvəlində könüllü şəkildə iştirak edib cinayətə viktimoloji əsas yaradan zərərçəkənin sayıqlığı maraqlandırmalı, daha doğrusu, qayğılandırmalıdır. Görünür elə bu qayğılanmanın, narahatlığın nəticəsidir ki, müvafiq dövlət qurumları, xüsusən də Daxili İşlər Nazirliyi ard-arda kiberdələduz-




luqla bağlı əhaliyə xəbərdarlıqlar edir, maarifləndirici video-çarxlar çəkib yayır. Geniş profilaktik tədbirləri varsa, cinayət də olacaq aksiomu öz aktuallığını yada salır. Virtual alqı-satqı prosesində müəyyən tapşırıqları yerinə yetirmək üçün insan davranışını təqlid edən elektron botlar iştirak etmir axı. Məkan virtual olsa da, ticari münasibətlər real alıcı və satıcılar, adamlar arasında cərəyan edir. İnsan olan yerdə isə, nə bəşəri hikmətdirsə, hüquqpozuntusu, qanunsuzluq mütləq baş verir.

Bizi daha çox hadisənin luqla bağlı əhaliyə xəbərdarlıqlar edir, maarifləndirici video-çarxlar çəkib yayır. Geniş profilaktik tədbirləri kibercinayətkarlığla məşğul olanların əməliyyat yolu ilə tutulmasının müşayiət etməsi onların ələkeçməzlik mifini dağıdır. Ancaq, qeyd etdiyimiz kimi, kiber məkan bir ölkənin daxili ilə məhdudlaşmadığı üçün xaricdən gələn təhdidlərə qarşı mübarizənin kəsəri bu cür profilaktik tədbirlərdən xeyli dərəcədə asılıdır. Bir şərtlə ki, alıcı da maariflənsin, özü üçün nəticə çıxarsın.

Məsələn, belə xəbərdarlıqlarda kiberdələduzların son vaxtlarda hansı üsullardan istifadə edib istifadəçiləri qurbana çevirmələrinin və yaxud insanların hansı ehtiyatsızlıqları ucbatından kiberdələduzların toruna düşdükləri ilə bağlı izlər var. Əslində, polis öz təcrübəsindən, cinayətlərin baş verməsinə aparıb çıxaran halların təhqiqatından sonra gəldiyi qənaəti, əlində olan faktları paylaşır. Yəni "bunu etməkdən çəkinin", "yalandır", "hiylədir", "saxtakarlıqdır" deyilən hallar artıq kiminsə başına gəlib və bu kəlmələr də barəsində araşdırma aparılan kiberdələduzluq faktlarının, bir növ, preambulasıdır.

Son dəfə, hədiyyə qazandınız kimi anidən gələn mesajlara inanıb şəxsi və bank kartı ilə bağlı informasiyanı qarşı tərəfə ötürməmək, açıq mənbələrdə şəxsi məlumatları yaymamaqla bağlı xəbərdarlıq edildi, məsələn. Bəli, bu kiber dünyanın risklərini nəzərə almağa yönəlik bir çağırışdır. Ancaq, həm də artıq belə səhflərə yol vermiş zərərçəkmişlərin "biz etdik, siz etməyin" səsidir.

Ona görə getdikcə genişlənən onlayn alqı-satqı prosesində sonradan başının ağrımasını istəməyən alıcının xəbərdarlıqları qulaqardına vurmaması məsləhətdir.

*S. Qarayeva*

# Yeni xidməti maşınlar verilib

## Tədbirdə Prezidentin səlahiyyətli nümayəndəsi iştirak edib





**Cənab Prezidentin tapşırığına uyğun olaraq Naxçıvan MR-nın Daxili İşlər Nazirliyinin maddi texniki bazasının və əməkdaşların xidmət şəraitinin gücləndirilməsi istiqamətində tədbirlər davam etdirilir.**

Naxçıvanda Dəmir Yolu Nəqliyyatında Polis Şöbəsinin yeni inzibati binasının açılışında Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli iştirak edib.

İnzibati bina ilə tanışıqdan sonra səlahiyyətli nümayəndə muxtar respublikanın polis orqanlarına təqdim olunan yeni xidməti avtomobillərə baxıb.

Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, polis general-mayoru Süleyman Neymətov məlumat verib ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinə 16 yeni xidməti avtomobil təqdim edilib.

Bildirilib ki, 4 "BMW" markalı avtomobil yol-patrul xidməti, "JAC-T8" markalı 12 avtomobil isə mühafizə polisi, post-patrul xidməti və Dəmir Yolu Nəqliyyatında Polis Şöbəsi üçün nəzərdə tutulub.

# Mübariz oğulların cərgəsində

## Vətən çağıranda harayına yetişənlərin içində o da vardı

**"Dar gün" anlayışını şəxsə, fərdə aid edəndə ilk baxışdan onun təsir gücünün azaldığını görürük. Ancaq bu sözü Vətənlə qoşa çəkəndə və "Vətənin dar günündə hamımız bir olmalıyıq" şüarı ilə publikaya səslənəndə mənanın və mahiyyətin dəyişdiyi an məsələsi olur.**

Vətən müharibəsi II Qarabağ savaşının sinonimi kimi leksikonumuza daxil olduqdan sonra yalnız Qələbə ruhuna köklənən fikirlər silahımıza çevrilib düşməni dünyanın istənilən nöqtəsində susduqmağa qadir idi. Dünyanın silah dilindən anladığı və sülhü təzləşdirən diplomatiyanın onun kölgəsində qaldığı bir dövrdə xalqımızın dəmir yumruğa dönüb XX əsrin məğlubiyyətini, məşəqqətini XXI əsrdə Qələbəyə çevirmək inadı ilə diqtə dilində danışmaq istəyənləri yerinə oturtdu.



Əsrə qalib xalq kimi möhürümüzü vurduq. Bu Qələbə cavan nəsillə orta nəslin, Vətən həsrəti ilə qocalan hər kəsin ruhunun, təfəkkürünün, inamının və inadının bariz nümunəsi idi.

Xalqımızın hərəkətverici qüvvəsi olan Azərbaycan gəncliyi haqqında isə ən gözəl sözləri Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyev ötən il ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına müraciətində dilə gətirmişdi: "Elə gənclər yetişdirmişik ki, bu gənclər dağı dağ üstə qoya bilər və əslində, bunu da etdilər. Biz elə bir gənc nəsil yetişdirdik ki, onlar həm yüksək mənəvi, həm də yüksək fiziki keyfiyyətlər göstərərək, uzun illər ərzində işğal altında olan torpaqları azad etdilər və Şuşa kimi alınmaz qalanı faktiki olaraq yüngül silahlarla, əliyalın azad etdilər".



**Həmin gənclərdən biri də 2022-ci ildən Naxçıvan ŞPİ-nin Post-Patrul Xidməti Bölüyünün əməkdaşı kimi asayişi, sabitliyi qoruyan polis serjantı Afin Mustafayevdir.**

O, 1998-ci ildə Culfa rayonunun Teyvaz kəndində doğulub. 2018-ci ildə orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə yollanıb. Vətən müharibəsində Xocavəndin, Füzulinin və Şuşanın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə fədakarlıq nümayiş etdirib.

Prezident İlham Əliyevin sərəncamları ilə "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" və Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı ilə "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.

*Çimnaz Nəcəfova*
*polis leytenantı*

# Vətəndaş mövqeyi

## Veteranlarımız seçkilərdə müşahidəçi qismində iştirak ediblər

Fevralın 7-də müstəqillik tariximizdə ilk dəfə olaraq qalib xalq kimi Prezident seçkilərində iştirak etdik.

Ən mühüm isə bu seçkilərin işğaldan azad olunmuş yurd yerlərimizdə keçirilməsi oldu. Uzun illərdən sonra Qarabağda və Şərqi Zəngəzurda Zəfər seçkisinin qürurunu yaşadıq.

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində DİN Veteranlar Şurasının üzvləri də müşahidəçi qismində iştirak ediblər.

Bununla bağlı qəzetimizə DİN Veteranlar Şurası sədrinin müavini istefada olan polis polkovniki Ramiz Axundov bildirib ki, 8 seçki dairəsinin 17 seçki məntəqəsinin heç birində qanunazidd hal qeydə alınmayıb, seçkilər tam şəffaf və yüksək əhval-ruhiyyə ilə baş tutub. Seçicilər onlar üçün yaradılmış geniş imkanlardan səmərəli istifadə edərək azad və sərbəst şəkildə öz konstitusion hüquqlarını reallaşdırıblar.

# Maarifləndirmə də mübarizədir...

## Polis "Sağlam bədəndə sağlam ruh olar" devizi ilə tədbirlər keçirir



"Özünəqəsdin ən ağır forması olan narkomaniyanın get-gedə gəncləşməsi, onun yayılmasının müasir yollarından biri kimi internet üzərindən sərhədlər aşması ölkəmizdə də ciddi narahatlıq doğurur. Bu istiqamətdə mübarizə tədbirlərinin kəsərini artırmaq üçün maarifləndirmə vacibdir".

Bu fikirlər Xətai rayonunda yerləşən 191 saylı tam orta məktəbdə "Narkomaniya cəmiyyəti narahat edən problemlərdən biridir" mövzusunda keçirilən tədbirdə səslənib.

Məktəbin direktoru Leyla Məcidova tədbirin əhəmiyyətindən danışarkən qeyd edib ki, narkomaniyanın xüsusilə gənc nəsil arasında yayılması onun insan orqanizmində törədə biləcəyi ağır fəsadlar haqqında məlumatsızlıqdan qaynaqlanır. Buna görə polisin sağlam həyat tərzini təbliğ edən maarifləndirici tədbirləri yeniyetmə və gənclərin narkomaniyanın qurbanı olmasının qarşısını alır.

Narkotiklərin fəsadlarından söz açan Bakı Şəhər BPİ-nin baş inspektoru polis polkovnik-leytenantı Kəmalə Ələkbərova vurğulayıb ki, zərərli vərdişlərdən uzaq durmağın yeganə yolu sağlam həyat tərzi, idmanla məşğul olmaq və təhsilə daha çox vaxt ayırmaqdır.

Tədbirdə çıxış edənlər narkotiklərdən istifadənin nəinki fiziki və mənəvi zərbələr vurduğunu, eyni zamanda cinayətlərə yol açdığını bildiriblər. Sonda şagirdləri maraqlandıran suallar cavablandırılıb.

*Aytəkin Nəcəfova*
*polis polkovnik-leytenantı*

# Növbəti "sərhəd-sipər" əməliyyatı

## Sərhədyanı rayonlarda təşkilati-praktik tədbirlər keçirilir

Azərbaycan və Rusiya daxili işlər nazirləri arasında əldə olunan qarşılıqlı razılaşmaya əsasən hər iki ölkənin sərhədyanı rayonlarının ərazisində "Sərhəd-sipər" şərti adı altında birgə kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər keçirilir.

Bir həftə davam edəcək tədbirləri mütəmadi olaraq həyata keçirilir. Əsas məqsəd sərhədyanı əməkdaşlıq məsələləri ilə bağlı qəbul edilmiş qərarların yerinə yetirilməsi, transmilli mütəşəkkil cinayətkar dəstələrin və terrorçu təşkilatların üzvlərinin ifşa edilərək zərərsizləşdirilməsi, silah-sursatın, partlayıcı maddələrin və qurğuların, narkotik vasitələrin, eləcə də digər hüquqazidd əməllərin həyata keçirilməsinə yönələn maliyyə və maddi vəsaitlərin daxilolma kanallarının müəyyənləşdirilib qarşısının alınması sahəsində kompleks təşkilati-praktik tədbirlərin icra etməkdir.

# Hərbi yol polisi ilə təlim

## Hərəkət təhlükəsizliyi izah olunub

Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində hərbi yol polisinin bir qrup şəxsi heyəti ilə təlim-metodiki toplantı keçirilib.

Toplantı Bakı Şəhər BPİ Dövlət Yol Polisi İdarəsi və hərbi polis bölməsinin hərbi avtomobil müfəttişliyi tətrəfindən təşkil olunub. Metodiki təlimdə hərbi hissələrin sürücüləri və aidiyyəti şəxslər ilə yol hərəkət qaydalarına əməl edilməsi, hərəkət təhlükəsizliyinin təmin olunmasına dair əmrlərin tələbləri, həmçinin qarnizon hərbi hissələrinin avtonəqliyyat vasitələrinin texniki vəziyyətinin yoxlanılması, onlardan öz təyinatı üzrə istifadə edilməsi, yol sənədlərinin olması və düzgün tərtib edilməsi mövzusunda maarifləndirici söhbətlər aparılıb.

Hərbi qulluqçulara Müdafiə Nazirliyi rəhbərliyinin tələb və göstərişləri çatdırılıb, xidmətin düzgün və keyfiyyətli təşkili ilə bağlı tövsiyələr verilib. Həmçinin müvafiq dövlət qurumları ilə birgə fəaliyyətin təşkili barədə fikir mübadiləsi aparılıb.

# Bakıya çatmayan "sovqat"

## Narkotik qaçaqmalçıları saxlanılıb

Yardımlıdan paytaxta 53 kiloqram narkotik vasitə gətirmək istəyən şəxslər saxlanılıblar.

Lənkəran regional qrupumuzdan verilən məlumata görə, narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən Beyləqan rayon sakinləri Ramin Paşayev və Dəyanət Quliyev Yardımlı Rayon Polis Şöbəsinin əməkdaşlarının rayonun Daryavar kəndi ərazisində keçirdikləri əməliyyat tədbirləri nəticəsində saxlanılıblar. R.Paşayevin idarə etdiyi "VAZ 21074" markalı avtomobilin yük yerinə keçirilən baxış zamanı 42 kiloqram marixuana, 8 kiloqram metamfetamin və 3 kiloqram heroin aşkarlanaraq götürülüb.

Saxlanılan şəxslərin ölkə ərazisinə qaçaqmalçılıq yolu ilə gətirilən həmin narkotik vasitələri pul qarşılığında Bakı şəhəri ərazisinə çatdırmaq üçün əldə etdikləri müəyyən edilib. R.Paşayev və D.Quliyev barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Düşməndən qalan "miras"

## İşğaldan azad edilmiş ərazilərdə silah-sursat aşkarlanıb





Ağdam Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdiyi tədbirlər zamanı Sırxavənd kəndi ərazisində yerləşən fərdi yaşayış evinin zirzəmisindən 6 ədəd avtomat, 1 ədəd pulemyot, müxtəlif çaplı patronlar və digər sürsatlar götürülüb.

Cəbrayıl Rayon Polis Şöbəsinin əməkdaşlarının rayon ərazisində keçirdikləri tədbirlər zamanı Nüzgar kəndi ərazisində 5 avtomat, 1 pulemyot, 1 snayper tüfəngi, patronlar aşkarlanıb. Fevralın 9-14 tarixlərində isə Xankəndi şəhəri ərazisində 32 ədəd müxtəlif markalı avtomat silahı, 4 tapança, 21 ədəd müxtəlif markalı tüfəng, 28 ədəd qumbara, 5 ədəd alışdırıcı, 12 qumbara alışdırıcısı, 157 ədəd patron darağı, 6479 ədəd müxtəlif çaplı patron aşkarlanaraq aidiyyəti üzrə təhvil verilib.

# Qorxunc plan

## Tibb bacısı niyə "intihar" etmişdi?






ATC13

Garry.

I am typing this note, because I know that if I were to hand write it and leave it for you, then I know that you wouldn't read it.

I am so sorry for all the hurt I have caused you garry. I never meant to hurt you or to cause you so much pain.

I made a stupid mistake and I betrayed your trust, and I betrayed my family at the same time. I don't know what made me do what I did. I wish the whole thing had never happened. It all got out of hand. I have ended up with nothing.

You are kind to want to forgive me. I don't deserve your forgiveness.

When you think of me, just try and think of the happier times.

Sandra Jane Weddell

Məhkəmə dilçiliyinin banilərindən sayılan britaniyalı alim Con Olssonun son kitabında 300-dən çox qətldən bəhs olunur. Kitabda onun "ədəbi barmaq izi" adlandırdığı üsuldan istifadə edərək yazı analizləri ilə bir çox qətllərin üstünün açıldığı yer alır. Orada təsvir edilən ən maraqlı hadisələrdən biri də sadəcə durğu işarəsi ilə açılan qətl hadisəsidir.

Arvadı Sandranı öldürən polis müfəttişi Qarri Veddel peşəkar təcrübəsinə əsaslanaraq heç vaxt tutulmayacağına inanmışdı. Ancaq heç gözləmədiyi anda yalnız bir "nöqtə" onu ələ verdi.

### "İntihar" görüntüsü yaradılmışdı

2007-ci ilin yanvarında İngiltərənin Bedfordşir əyalətində yaşayan Sandranın başqa biri ilə münasibətdə olduğunu öyrənən Qarri arvadını məftillə boğduqdan sonra onu qarajlarının tavanından asdı. İntihar qeydini hazırlamağı əvvəlcədən planlaşdıran müfəttiş məktubu makinada yazarkən plastik əlcəklərdən istifadə edərək heç bir dəlil qoymayacağını düşünmüşdü. O, intihar məktubunda yazırdı: "Qarri. Bu qeydi makinada yazdım. Bilirdim ki, əl ilə yazsam oxumayacaqsan. Sənə yaşatdıqlarım üçün üzr istəyirəm..."

### Xitabdan sonra vergül, yoxsa nöqtə?

Hadisəni araşdıran məhkəmə ekspertləri polis müfəttişi Qarri Veddel və onun həyat yoldaşı Sandra tərəfinən makinada yazılmış yazıları, digər mətnləri tutuşdurdular. Bu müqayisədən sonra ortaya çıxan nəticə ilə qatilin tapılması an məsələsi idi. Belə də oldu.

Sonuncu qeyddə Qarri arvadının etmədiyi orfoqrafik səhvə yol vermiş, xitablardan sonra vergül əvəzinə nöqtə qoymuşdu. İntihar məktubunu yenidən araşdıran və məktubun əvvəlindəki "Qarri" xitabından sonra qoyulan nöqtəyə diqqəti yönəldən məhkəmə-tibb ekspertiza qrupu qətlin Qarri tərəfindən törədildiyinə tam əmin oldu. Polis müfəttişi Qarri məktubu yazarkən arvadından fərqli olaraq vergül yerinə nöqtə qoymuşdu və bu kiçik "nöqtə" intihar pərdəsi altında olan cinayəti açmaq üçün kifayət idi. Təksibolunmaz sübutlar əsasında Qarri Veddel həbs olundu və həyat yoldaşını amansızca öldürdüyünə görə mühakimə edildi.

### Film kimi qətl

Qarri Veddel arvadı Sandranı "Mükəmməl Cinayət" (A Perfect Murder) filmindəki kimi plan hazırlayaraq öldürmüşdü. 1998-ci ildə Maykl Duqlas və Qvinet Peltrounun rol aldığı "Mükəmməl cinayət" filmində də qısqanc ərdən və onun xəyanətkar arvadının qətllə bitən hekayəsindən bəhs edilir.

*Hazırladı: Aytən Tahirova*

# Qurumlararası yarış

## Daxili İşlər Nazirliyi birinci oldu








Fevralın 10-da dövlət qurumlarının əməkdaşları arasında üzgüçülük yarışı keçirilib.

Su İdmanı Sarayında təşkil olunan yarışda 21 dövlət qurumundan 72 əməkdaş (12 qadın, 60 kişi) iştirak edib.

Həmin yarışda BDYPİ-nin əməkdaşı polis polkovniki Toğrul Sadıqov, BBPİ DYPİ-nin əməkdaşı polis kapitanı Emil İbrahimov, ƏÇPA-nın polis nəfəri Fatimə Dünyamalıyeva, polis serjantı Nərgiz Nəsirova, polis serjantı Elşad Nəsibov, Sumqayıt ŞPİ PPXT-nın polis serjantı Cavidan Cahangirov, Nərimanov RPİ-nin əməkdaşları - polis serjantı Nuriyyə Axundova və polis nəfəri Nəzrin Hüseynova Daxili İşlər Nazirliyini təmsil ediblər.

İştirakçılar şəxsi və komanda birinciliyində yarışıblar. Yekun nəticələrə görə kişilər arasında 50 metr məsafəyə sərbəst üzmədə polis kapitanı E.İbrahimov birinci olub. Qadınlar arasında 50 metr məsafəyə sərbəst üzmədə polis serjantı N.Nəsirova, polis serjantı N.Axundova ilk üçlükdə qərarlaşıblar.

Qadınlar və kişilər arasında keçirilən estafet yarışında da (4x50, sərbəst üsul), (4x50 qarışıq MİX, estafet) Daxili İşlər Nazirliyi birinciliyi əldən verməyib.

Sonda qaliblər mükafatlandırılıb.

Yeri gəlmişkən, polis kapitanı Emil İbrahimov və polis serjantı Nərgiz Nəsirova həmin yarışda 3 disiplin üzrə 50 metr məsafəyə sərbəst üzmədə və qarışıq estafetdə ümumilikdə (4*50) 6 qızıl medal qazanıblar.

*Ruhiyyə Əliyeva*
*Ruslan Vəliyev*

# Polis xəfiyyəsi Ejen Fransua Vidokun memuarları - Düzgün strategiya

## Əməliyyat-axtarış işinin və kriminalistikanın əsasları

**Təhlil və araşdırmalara görə, Vidokun təcrübəyə əsaslanan qeydləri və tövsiyələri metodiki mahiyyət daşımaqla, əməliyyat-axtarış işinin, kriminalistikanın konstitusiyasıdır. Odur ki, əfsanəvi polis xəfiyyəsi Vidokun memuarlarının dərcini davam etdiririk.**

*(Əvvəli ötən sayımızda)*

- Cənab komissar, burda nə var ki? Hərə öz yoluyla gedirdi. Təsadüfən mənə toxundu. Əlindəki bağlama sürüşüb yerə düşdü. Mən əyilib ona kömək etmək istəyirdim ki, jandarmalar hər ikimizi saxlayıb bura gətirdi. Əgər yalan deyirəmsə, vur gözümü çıxart. Bir də ki, mənə inanmırsan, özündən soruş.

Əslində, yaxşı uydurulmuş nağıl idi. Mən nəinki Massonun ifadələrinin əksini söylədim, tam tərsi, bütün dediklərinin həqiqət olduğunu təsdiqlədim. Sonda sanki uydurmalarımıza inanmayan kimi davranan komissar qəzəbli səslə soruşdu:

- Sənədləriniz necə, varmı?

Mən dərhal yaşayış üçün icazə vərəqimi təqdim etdim. Hər şeyin qaydasında olduğunu bildirib dərhal məni məntəqədən buraxdılar. "Gedin, dincəlin". Mənə deyilən bu sözləri eşidən Massonun üzündə böyük sevinc hiss olunurdu. Səmimiyyətlə bir etiraf edim ki, bu sevinci görməmək üçün insan gərək kor olaydı.

Artıq oğru ələ keçmişdi. Növbəti əsas məsələ oğurlanmış malları realizə edilmədən aşkarlamaq idi. Dərhal əməliyyat-axtarış tədbirlərinə başlayan polis "Ölünün başı" ləqəbli qadını heç gözləmədiyi anda maddi sübutlarla bir yerdə yaxaladı.

Massonu müvəqqəti saxlama məntəqəsinə göndərdilər. Ertəsi gün oğru aləmində qəbul olunmuş qədim ənənəyə uyğun olaraq ortağı kimi onun kamerasına dörd funt dəyərində yumru çörək, veçina və bir miqdar da pul göndərdim. Xəbərçilər onun bu diqqətdən çox təsirləndiyini mənə çatdırdılar. Amma içəridə olmasının əsas səbəbkarının ortağı sandığı şəxsin olduğundan hələ də xəbərsiz idi. O, Jan-Lui və Vidokun eyni adam olduğunu yalnız istintaq zamanı öyrəndi. Məhkəmədə özünü təmizə çıxarmaq üçün hər şeyi mənim planlaşdırdığımı, guya onu oğurlanmış malları daşımaq üçün özümə şərik etdiyimi söylədi. Əlbəttə, bu nağıllara heç kəs inanmadı. Çox ciddi-cəhdlə təqsirsiz olduğunu bildirməsinə baxmayaraq, məhkəmə onu yenidən həbsxanaya göndərdi.

### Maraqlı dialoq...

Bir müddət sonra təsadüfən məhkəməsi yekunlaşmış dustaqların cəzaçəkmə müəssisələrinə etap olunmalarını izləməli oldum. Həbs olunandan bəri üzümü belə görməyən Masson dəmir barmaqlıqların arasından məni görən kimi tanıdı.

- Aha, bu sizsiniz müsyö Jan Lui?




Sizə olan etibarımdan necə də məharətlə istifadə etdiniz. Bacarığınıza heyran qalmamaq mümkün deyil. Heyif, bilsəydim o vaxt yediyiniz kartofların hesabını verməzdim!

- Masson mənə olan nifrətin hələ də keçməyib? Axı, sən özün arxanca gəlməyimi istədin. Düz demirəm?

- Düzdür, amma mən axmaq sizin məxfi agent olduğunuzu hardan biləydim.

- Əgər, bunu sənə söyləsəydim öz məsləkimə xəyanət etmiş olardım. Amma düşünürəm ki, həqiqəti öyrənməyinin sənə heç bir xeyri olmayacaqdı. Məsələ burasındadır ki, kim olduğumu bilməyin sənin həbsini sadəcə bir müddət gecikdirəcəkdi.

- Kim olmağının fərqi yoxdu, əsas odur ki, sən əclafsan. Gör mən nə qədər səfehəm ki, sənə bütün ruhumla inanmışdım. Nəyə istəsən and içərəm ki, sənin kimi azadlıqda gəzib əclaf olmaqdansa, şərəfimlə ömrümü qazamatda çürütsəm daha mənalı olar.

- Nə deyim, zövqlər müzakirə olunmur.

- Cavab verə bilmirsən, yaramaz? Söz tapdın da danışmağa. Belə yerdə yaxşı deyiblər: "Utanmasan oynamağa nə var ki?"

- Bütün hallarda oğurluq etməkdən yaxşıdır. Bir də ki, biz olmasaq namuslu insanların aqibətini kim qoruyar?

Bu sözlərdən sonra o qəh-qəhəylə gülməyə başladı.

- Namuslu insanlar, - deyərək sözümü təkrarladı. Həqiqətən də gülməli danışırsan. Namuslu insanların aqibətini gör kim qoruyacaq?.. Heç olmasa bu barədə sən danışma. Sənin hansı yuvanın quşu olduğunu hər kəs yaxşı bilir.

Bu dəmdə bizə qulaq asan məhkumlardan biri uca səslə qışqırdı.

- "Narahat olma, gec-tez onun da ipini çəkən tapılacaq".

- Əlbətdə tapılacaq, - deyə Masson sevinclə qışqırdı. Bax, onda etdiyin əclaflıqlara görə cavab verməli olacaqsan.

Xidməti zərurətlə əlaqədar hər dəfə Bister qalasına çağırılanda nalayiq sözlər eşitməyə adət etmişdim. Onlardan qorxduğumu fikirləşməsinlər deyə, bəzən məni təhqir edən məhkumlara cavab verməli olurdum. Burda cəza çəkən yüzlərlə cinayətkarın mənə nifrət etməsinin əsas səbəbi, onların dəmir barmaqlıqlar arasına düşmələrində mənim və agentlərimin müstəsna xidmətlərimin olması idi. Nəhayət, bu dözülməz vəziyyətə son qoymaq qərarına gəldim.

Vidokun kim olduğunu və nələrə qadir olduğunu onlara sübut etməyin vaxtı çoxdan çatmışdı.

*(Ardı var)*

# Yalançıların xəstəliyi

## Mitomaniya nədir?

Patoloji yalan, yəni davamlı yalan danışma vərdişi psixiatriya sahəsində mitomaniya kimi müəyyən edilir. Bu vəziyyətdə olan şəxslərə "mitoman" deyilir. Bu termin mütəmadi yalan danışma davranışını adlandırmaq üçün istifadə olunur.



Patoloji yalan danışan şəxslər tez-tez başqalarını heyran edəcək şəkildə öz hekayələrini daha emosional və yaşayaraq danışmağa meyillidirlər. Bu tip yalan danışanlar normal yalan danışan şəxslərdən fərqlənir, çünki patoloji yalan danışanlar tez-tez yalanlarının doğru olduğuna inanırlar və bu yalanı həqiqət kimi yaşamağa meyillidirlər.

Pataloji yalan danışan şəxslər öz doğrularını özlərinə inandırmağı bacarırlar. Bu da danışdıqları yalanlarda fizioloji reaksiyalarını professional idarə etmələrinə səbəb olur. Onlar ifşa olunduqda aqressiv və kəskin reaksiya verməklə bərabər inkar etməyə çalışırlar.

Yalan adətən ətraf mühitə təsir etmək və qazanc əldə etmək üçün edilir. Məsələn, cinayətkar cəzadan yaxa qurtarmaq üçün törətdiyi cinayəti inkar edə bilər və ya satıcı məhsulunu sata bilmək üçün yalan danışa bilər. Ancaq patoloji yalan, faydası olmasa da təkrarlanan bir davranışdır.

Bu gün bu "xəstəlikdən" əziyyət çəkənlər istər gündəlik həyatda, istərsə də sosial şəbəkələr üzərindən insanları aldatmaqla məşğuldurlar.

# Müdriklərin söz xəzinəsi

## Yolu ağıl seçir, iradə hərəkətə gətirir, inam isə yola işıq salır.

Həyatınızı başqası tərəfindən seçilən rollarla oynamağa sərf etməyin.
**Paulo Koelyo**

Qaçan adam yıxılar.

İməkləyən yıxılmır.
**Pliniy Starşiy**

Dəyişməyən yeganə şey dəyişikliyin özüdür.
**Efesli Heraklit**

Sən nə qədər bilirsən bil, sənin biliyin qarşındakının anladığı qədərdir.
**Cəlaləddin Rumi**

Uğur bir uğursuzluqdan digərinə həvəsi itirmədən hərəkət etməkdir.
**Uinston Çerçill**

Odunu özün yarsan iki dəfə isinərsən.
**Henri Ford**

Ağlın və ürəyin yolu bir olduqda, bütün yollar zəfərə gedər.
**Tayfun Topaloğlu**

Yolu ağıl seçir, iradə hərəkətə gətirir,inam isə yola işıq salır.
**Əbu Turxan**

Ədalət olmadan nizam olmaz.
**Albert Kamyu**

Alov sönər, amma soyumaz.
**Qədim hind məsəli**

Əgər problemi həll etmək olarsa narahat olmağa dəyməz. Əgər problemin həlli yoxdursa narahat olmaq mənasızdır.
**Dalay Lama**

*Hazırladı: R.Əliyeva*

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10018

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik